# Cəmiyyətin fövqündə...

*Tarixçi-alim, professor Anar İsgəndərovun 70 yaşına*



**Ağacəfər HƏSƏNLİ**

Yüksək mədəni rəftar, təvazökarlıq, alicənablıq, ziyalılıq, ailə ənənəsindən doğan səmimilik canında, qanındadır, ana südündədir. Gənclik illərindən tanıdığım Anar İsgəndərovu (45 ildir) heç vaxt bədbin, özündənrazı və ya əməlində qeyri-sabit, dəyişkən görmədim. O, cavanlığında necə ədəb-ərkanlıydısa, oturuşunu-duruşunu biləniydisə, yenə həmin qiyafədədir, zaman yalnız alın qırışlarını artırıb, saçlarını ağardıb. Bir də zəkasının parlaq işığını gur edib, çağda hadisələrə özünəməxsus baxışını formalaşdırıb, təfəkkürünün bütün düyünlərini açıb, yaddaşını bərkidib, zənginləşdirib.

Anar İsgəndərov 1996-cı ilin yanvarında Masallının Kolatan kəndində Camal kişinin ailəsində dünyaya təşrif gətirib. Yeri gəlmişkən, bu bənzərsiz təbiətə malik dağətəyi yaşayış məskəni füsunkar gözəllik məkanıdır. Burda su içən, coğrafi ərazinin seyrinə dalan, ab-havasını ciyərlərinə çəkən adam mütləq surətdə sağlam yetişməli, ya elm cəngavəri olmalı, ya şair kimi çağlamalı, ya da pəhləvantək səsi meydanlardan gəlməlidir. Mühit Kolatanın unikal faunasını və florasını belə diktə edir. Heç şübhəsiz, orta məktəb illərində oxuyarkən (1963-1973) yeniyetmə, bəstəboy oğlanın da tükənməz arzuları vardı, bütün fənləri yaxşı bilsə də, ilk növbədə, Vətənin, sonra dünyanın tarixinin onun üçün xüsusi əhəmiyyəti vardı. Sonra gəlirdi klassik və müasir Azərbaycan ədəbiyyatı, o cümlədən, antik dövr dühalarının roman və poemaları, mifik-məhəbbət macəralı dastanları. İlahi, bunları mütaliə edib başa çatdırmaq mümkün deyildi...

Əlqərəz, qısa tərcümeyi-halından bəllidir ki, o, 1973-1978-ci illərdə vaxtilə bütün gənclərin can atdığı BDU-da təhsil almış (tarix fakültəsində), bu mötəbər təhsil ocağını bitirən kimi təyinatla elinə-obasına qayıtmışdır. Bir neçə il Boradigah qəsəbə məktəbində (direktor müavini) və doğulduğu Kolatan kənd orta məktəbində tarix müəllimi işləmişdir. Anar İsgəndərovun yolu indiki Neft və Sənaye Universitetindən (əvvəlki adı - Azərbaycan Neft və Kimya İnstitutu) keçir, fəlsəfədən dərs deyir, perspektivini nəzərə alıb komsomol işinə irəli çəkirlər. Lakin, bitirdiyi tarix fakültəsinə (BDU-ya) yenidən qayıtmaq möcüzəsi baş verir. Yatıb bəlkə də yuxusuna girməzdi ki, ona vaxtilə elm öyrədən alim və təcrübəli pedaqoqlarla bu təhsil ocağında nə vaxtsa birgə çalışacaq.

1994-cü ildə universitetin tarix fakültəsinin mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasında baş laborant vəzifəsində ilk əmək fəaliyyəti dövrü. Hər dəfə auditoriyalarda, seminar-məşğələ otaqlarında, dəhlizlərdə və səliqəli həyət-bacada görünəndə sanki ona dünyanı bağışlayırdılar. Hələ bu, nəydi, ilk sınaq idi, qarşıda aspirantlıq vardı və bu maneəni uğurla dəf etmək gərəkdi. A.İsgəndərov elə ixtisası üzrə 1989-cu ildə ilkin olaraq çalışdığı kafedranın hörmətini qaldırmış, dissertasiya işini müdafiə etmiş, tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almış, 1993-cü ildə dosent elmi adını qazanmışdır. O, get-gedə uğurlarını artırmış, 1999-cu ildə tarix fakültəsinin mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri seçilmiş və indiyədək həmin kafedraya rəhbərlik edir. Sevindirici haldır ki, Anar müəllimin bilavasitə rəhbərliyi altında Azərbaycanda mənbəşünaslıq və tarixşünaslıq problemləri üzrə elmi məktəb yaradılmış və bu elmi məktəb fəaliyyətini genişləndirməkdə, respublikada mərkəz rolunu doğrultmaqdadır.

Əlbəttə, doktorluq dissertasiyası özünü uzun müddət gözlədə bilməzdi. İstedadlı və zəhmətkeş araşdırıcı alimi çox ciddi, millət üçün vacib bir mövzu həmişə düşündürürdü. Təbii ki, bu qlobal problem soyqırımı problemi idi, daha doğrusu, Qırmızı Oktyabr inqilabının ilk çağlarında erməni daşnak birləşmələrinin Azərbaycanda apardığı amansız qırğınlarla bağlı. Düzü, bu, məsələ həm sovet tarixçiləri tərəfindən, həm də ermənilərin diktəsi sayəsində təhrif edilmişdir. Böhtançı tarixçilər sovet ideologiyasına uyğun olaraq və təbliğinə uyaraq həqiqətləri ört-basdır etmiş, yalançı əsərlərlə xalqımızı aldatmışlar. Məhz Anar İsgəndərovun prinsipiallığı və ayıqlığı 2004-cü ildə müdafiə elədiyi doktorluq elmi işinin adından dərhal sezilirdi: "Azərbaycanda 1917-1918-ci illərdə türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımı probleminin tarixşünaslığı". Dissertasiyanın uğurlu müdafiəsinin ardınca o, professor elmi dərəcəsinə də yiyələnmişdir (2005-ci il).

Qeyd edək ki, həm respublikamızda, həm də ölkəmizdən kənarda Anar Camal oğlu XX əsr tarixinin ən görkəmli mütəxəssislərindən biri kimi tanınır. Alimin "1918-ci il Mart qırğınının tarixşünaslığı" monoqrafiyası ona geniş şöhrət qazandırmışdır. O cümlədən, 2003-cü ildə böyük tirajla kütləvi surətdə nəşr olunan "Azərbaycan Xalq Cümhuriyyəti" biblioqrafik əsəri də eləcə. Mütəxəssisin 2006-cı ildə daha bir fundamental ciddi kitabı - "Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı təhsilinin magistr pilləsi üçün dərslik kimi çap üzü görmüşdür. Eyni zamanda onun yığcam "Azərbaycan ərazisində erməni quldur və terrorçu birləşmələrinin törətdikləri cinayətlərə dair faktlar" yaddaş kitabçası da əhəmiyyəti və sanbalı etibarı ilə bu sıradadır (2011). Anar İsgəndərovun ABŞ-da elə diqqət mərkəzində qoyduğumuz məsələlər barədə daha bir şah əsəri ingiliscə nəşr edilmiş, ilk azərbaycanlı müəllifin kitabı kimi ölkənin konqres kitabxanasında saxlanılmışdır. Ötən illər ərzində zəhmətkeş və məhsuldar alimin 20 monoqrafiyası, 10 dərs vəsaiti, 350-dən artıq elmi məqaləsi çap olunmuşdur.



Dərin zəkası və rəvan nitqi ilə həmişə dinləyiciləri televiziya ekranlarında, elmi konfrans və seminarlarında məftun edən alimin erudisiyası, nitqi Azərbaycan dilinin kökündən qidasını götürən söz və ifadələrlə, bənzətmə və ibarələrlə, şirəli sətiraltı hikmətlərlə doludur. Onun bütün məruzələri, məqalələri daxili məntiqə söykənir, faktlara əsaslanır. "Azərbaycan tarixşünaslığı", "Azərbaycan tarixinin mənbəşünaslığı", "Azərbaycanın tarixi coğrafiyası" dərslikləri bir neçə dəfə nəşr olunmuş, tədris üçün ali məktəblərə verilmişdir. YAP-ın idarə heyətinin üzvü, alim respublikanın müxtəlif guşələrində mərhum Heydər Əliyevin, müstəqillik, azərbaycançılıq məfkurəsi və siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinə həsr olunmuş çoxsaylı mühazirələr oxumuş və xalq tərəfindən rəğbətlə qarşılanmışdır.

Mədəniyyətimizin təbliğatçısı kimi şöhrət tapan tarixçi ədəbiyyatımızın mükəmməl bilicisidir və o, tez-tez təkcə Azərbaycan Yazıçılar Birliyinin tədbirlərinə deyil, söz ustalarının yubiley şənliklərinə qatılır, yazıçı, şair barədə fikirlərini tribunadan bölüşür. Şair Vaqif Bəhmənli tələbə yoldaşı haqda deyir:

- Hə, məndən sonra Anar İsgəndərov da gəlib çatdı 70 yaşına. Tarixçi tələbə və kurs yoldaşım. Hər ikimiz kənd uşağıyıq və abituriyent kimi mən jurnalistikanı, Anar tarixi seçmişdi, elə 1973-cü ildə şərəfli tələbə adını qazandıq. İlk baxışdan sakit təbiətliydi bu baxımdan oğlan, ancaq daxilinin qaynarlığı üzə çıxırdı, hiss olunurdu ki, cənub bölgəsindən şəhər mühakiməsi var və bütün bunların fonunda içinin tufanını bu dünyaya üzə çıxarmaq istəyindədi.

Həqiqətən, Anar İsgəndərov indi müstəqil Vətənimizin ən dürüst, mötəbər tarixçi alimidir. Onun başqalarından fərqi ondadır ki, ədəbiyyatımızı, söz xəzinəmizi dərindən bilir. Şair və yazıçılarla dostluq edir. Bəlkə də ədəbiyyatı dərindən sevmişdir ki, yaddaşı çevikdir, nitqi səlistdir, rəvandır.

Tahir Taisoğlu (şair-publisist, məşhur "91-lər"in nümayəndəsi): "Tanınmış elm və pedaqogika xadimi Anar İsgəndərov həm də çoxminli Yeni Azərbaycan Partiyasının sədaqətli üzvlərinin ən öncüllərindəndi. Mən partiyamızın tədbirlərində onun dəfələrlə dərin məzmunlu məruzə və çıxışlarını dinləmiş, professorun hər cümləsində, hər ifadəsində ulu öndərimizin çoxşaxəli və çoxistiqamətli ictimai-siyasi və dövlətçilik fəlsəfəsinin geniş təhlilinə rast gəlmişəm. Anar müəllimin çap olunmuş əsərlərinin əksəriyyəti ilə tanışam. İstedadlı alim dostumuzun öz sahəsindən əlavə, ictimai-siyasi əsərləri məndə həmişə böyük maraq doğurmuşdur. O yazılar ki, onlar Yeni Azərbaycan Partiyasının respublika əhəmiyyətli siyasi fəaliyyətini əks etdirir. Anar müəllim haqlı olaraq yazır ki, Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu rəhbərliyi ilə həyata keçirilən, reallaşdırılan ümummilli strategiya hər bir sahənin paralel tərəqqisini ən yüksək səviyyədə təmin edib, artıq bu kurs ardıcıl surətdə davam etməkdədir. Professor Anar İsgəndərovla mən tez-tez doğma partiyamızın tədbirlərində görüşür, hal-əhval tuturuq.

Sərvaz Hüseynoğlu (Azərbaycan Yazıçılar Birliyinin bölmə rəhbəri, "Ədəbiyyat qəzeti"nin şöbə redaktoru): Mən Anar İsgəndərovu tarixi tarixləşdirən həqiqi alim adlandırıram. Çünki tarix böyük elmdi: özü də rəqəmlərdən, hadisələrdən bəhs edən, həqiqətlərə güzgü tutan elm. O, bu kimi gizlinlərə ta erkən gənclik illərindən vaqif olub. Bu gün zəngin tərcümeyi-halı, elmi fəaliyyətinin miqyası hər bir Azərbaycan ziyalısı üçün olduqca aydın və təqdirəlayiqdir. Və bu bilinən, dərin qədirbilənliklə təqdir olunan fəaliyyətin özü, hardasa bir tarix hadisəsi, tarix içində tarixdir. Görkəmli alimin həyatı barədə ictimaiyyət yetərincə məlumatlıdır.

Bu günlərdə daha bir xoş xəbər Anar İsgəndərovun qapısını döymüşdür: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə ona "Şöhrət" ordeni verilmişdir.